13 avqust / 2021

# Qəhrəmanlıq əsl Vətən məhəbbətidir

## *Baş leytenant Famil Əhmədzadənin ömür yolundan sətirlər*

***Əhmədzadə Famil Ağaəhməd oğlu 23 sentyabr 1975-ci ildə Bakı şəhəri Xətai rayonunda anadan olub. Ailəsi İsmayıllıya köçdüyünə görə Famil 1982-ci ildə İsmayıllı şəhər 3 saylı tam orta məktəbin I sinfinə daxil olub. Famil orta təhsil illərində məktəbin savadlı, ictimai işlərdə fəal şagirdlərindən biri kimi tanınıb. 1992-ci ildə orta məktəbi əla qiymətlərlə bitirib.***



Famil orta məktəbi bitirdiyi il Azərbaycanda test üsulu ilə keçirilən ilk imtahanlarda uğurla iştirak edərək Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun (indiki Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası) Politologiya ixtisasına qəbul olub. Akademiyanın sayılıb-seçilən tələbələrindən olan Famil 1997-ci ildə ali təhsilini fərqlənmə diplomu ilə başa vurub. O, hərbi kafedradan məzun olduğu üçün leytenant rütbəsi alıb, həmin ildə məzunu olduğu İsmayıllı şəhər 3 saylı orta məktəb-liseydə tarix müəllimi kimi pedaqoji fəaliyyətə başlayıb. 1999-cu ilin əvvəllərində Naxçıvan Muxtar Respublikasına hərbi xidmətə yollanıb. 2000-ci il noyabrın 9-da hərbi xidmətdən baş leytenant kimi tərxis olunub. Hərbi xidmətdən sonra yenidən öz doğma məktəbində pedaqoji fəaliyyətini davam etdirib.

Famil Əhmədzadə rayonda və eləcə də Respublikada ən yaxşı müəllim kimi tanınıb. İstedadlı müəllimin yetirmələri orta məktəbi uğurla bitirərək yüksək balla tələbə adını qazanıblar. Onun bir müəllim kimi ən böyük arzusu Vətənə layiqli vətəndaşlar yetişdirmək olub.

Famil 2020-ci ilin 27 sentyabrında - Vətən müharibəsi başlanan gün könüllü olaraq cəbhəyə yollanıb. Ürəyində böyük Vətən sevgisi yaşadan cəsur zabit, müəllim Tərtər rayonunun Talış və Suqovuşan kəndlərinin müdafiəsində müstəsna rol oynayıb. Oktyabr ayının 13-dən 14-nə keçən gecə Talış və Suqovuşanda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhid Famil Əhmədzadənin nəşi noyabrın 3-də əvvəlcə yaşadığı evə, daha sonra İsmayıllı rayonunun Şəhidlər Xiyabanına gətiriləyək, şəhər sakinlərinin izdihamlı yürüşü ilə dəfn edilib.

Famil sözün əsl mənasında tariximizi yaşadan tarixçi idi. O, özünün səmimiyyəti və insani keyfiyyətləri ilə hər kəsin qəlbində özünə yer almağı bacarırdı. Hətta özünə çoxlu dost qazanmışdı. İstər dərs dediyi orta məktəb kollektivi arasında, istər ictimaiyyət arasında və istərsə də ailədə özünə böyük hörmət qazanmışdı. O, kitabı çox sevirdi və çoxlu kitablar oxuyurdu, Azərbaycan tarixində geniş araşdırmalar aparırdı. Ölkədə və ölkədən kənar yerlərdə keçirilən konfranslarda iştirak edərək yüksək nailiyyətlər əldə etmişdir.

Famil Əhmədzadə pedaqoji fəaliyyətdə olduğu İsmayıllı şəhər 3 saylı orta məktəb-liseydə özünün təşəbbüsü ilə tarix-diyarşünaslıq muzeyi yaratmışdır və həmin muzeyə ölümündən sonra Familin adı verilmişdir. Muzeydə qədimdən qalma tarixi eksponatlar: mis və saxsıdan düzəldilmiş qədim çini qablar, samovar və çayniklər, lampalar, sandıqlar, gül qablarında güllər, meyvə fiqurları, maraqlı kitablar, kağız üzərində əl ilə çəkilmiş ağac və dağların şəkilləri, milli geyimdə qızın abidəsi, çoxlu pullar və s. vardır. Famil həm də pul yığmağı çox xoşlayardı.

Qanı ilə tarix yazan, tarix müəllimi Famil Əhmədzadə hərbi xidmətə yola düşərkən orta məktəbdə dərs dediyi şagirdlərinə belə bir məktub yazmışdı: "- Salam, uşaqlar, necəsiniz? İnanıram ki, hər biriniz çox yaxşı və yüksək əhval-ruhiyyədəsiniz. Mən Vətənin çağırışına səs verib, əsgər borcumu yerinə yetirməyə gedirəm! Sizə təhsildə uğurlar arzulayır, gözəl nəticələr əldə etməyinizi istəyirəm. Buna görə də dərslərinizi yaxşı oxuyun! Hələlik məşğələlərimiz dayanır. Nə vaxt başlayacağını dəqiq deyə bilmirəm! Görüşmək ümidi ilə, hələlik sağ olun!"

Öz Vətənini və xalqını sevən əsl vətənpərvər insan idi Famil. Onu yaxından tanıyan dostlarından biri Famil haqqında belə yazır:

«2016-cı ilin yay ayları idi. Biz Respublika Təhsil Şurasında bir foruma hazırlaşırdıq. Qərara almışdıq ki, bu forumu «Qabaqcıl müəllimlərin birinci ümumrespublika forumu» adlandıraq. Forumun məhz bu adla keçirilməsi təsadüfi xarakter daşımırdı. Artıq 6 il idi ki, Təhsil Şurasında «Qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi və yayılması» layihəsi həyata keçirilirdi. Bu layihə çərçivəsində ölkənin ən yaxşı müəllimlərinin iş təcrübəsini öyrənir, «Təhsil və zaman» qəzeti vasitəsilə Respublikaya yayırdıq. Foruma da əsasən iş təcrübəsini öyrəndiyimiz, eləcə də iş təcrübəsini öyrənməyi planlaşdırdığımız müəllimləri dəvət etmişdik. Famil müəllim, iş təcrübəsini öyrənməyi planlaşdırdığımız müəllimlərdən idi, bununla belə forumda onun da çıxışı nəzərdə tutulmuşdu. Bu dəfə Famil müəllim «tarixin inteqrasiya şəraitində tədrisi» problemlərindən bəhs etdi. Mən bu konfransda müəllim dostumun zəngin ədəbiyyat, coğrafiya, dünya tarixi biliklərinin şahidi oldum və onun ana dilimizi nə qədər mükəmməl bildiyini gördüm. Bir müəllim üçün bu biliklərin nə qədər vacib olduğunu izah etməyə fikrimcə ehtiyac yoxdur. Bircə onu deyə bilərəm ki, zəngin söz ehtiyatı, pedaqoji ustalığı ilə öz bilik və təcrübəsini istər şagirdlərinə, istərsə də ən ali səviyyəli auditoriyaya ötürə bilirdi. Bu, həm də onun geniş mütaliəsi ilə bağlı idi. Müşahidə edirdim ki, rayon, məktəb tədbirlərini səlis nitqi ilə necə idarə edir. Bu tədbirlərdə onun nitqini dinləyərkən mənə elə gəlirdi ki, hər bir sözün Familin nitqində xüsusi bir gözəlliyi var, yaxud o, hər bir sözə min gözəllik qatıb təqdim edir. Bəzən isə Məmməd Arazı, Musa Yaqubu, Bəxtiyar Vahabzadəni onun təqdimatında dinləyərkən, mənə elə gəlirdi ki, Famili deyil, Bəxtiyarlaşmış, Musalaşmış, Arazlaşmış Famili dinləyirəm. O, öz ana dilinə, tarixinə, ədəbiyyatına, təhsilinə, mədəniyyətinə, incəsənətinə, insani münasibətlərə əsl ziyalı mövqeyində dayanırdı. Onu dinləyərkən düşünürdüm ki, Famil yalnız bu günün tarix müəllimi deyil, o Azərbaycan müəllimliyinin vahid obrazıdır. Famil öz həyatı və şəhidliyi ilə Azərbaycan müəllimliyinin obrazını daha da zənginləşdirməyə, onu ölümsüz etməyə nail oldu. Bu, Famil müəllimin həyatının ən mükəmməl dərsi idi. O, bu dərsi ilə sübut etdi ki, yer üzündə ən uca ad şəhidlikdir, müəllimin isə ən mükəmməl dərsi öz şəxsi nümunəsidir…

Vətənimizin azadlığı uğrunda canını belə əsirgəmədən şəhidlik zirvəsinə ucalan, qanı ilə tarix yazan tarix müəllimi baş leytenant Famil Əhmədzadə tarixlərdə sətirlər, sətirlərdə isə iz qoydu getdi…"

Azərbaycan Respublikasının ərazi bütövülyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirmiş, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu, baş leytenant Əhmədzadə Famil Ağaəhməd oğlu ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 15 dekabr 2020-ci il tarixdə «Vətən uğrunda» medalı, 18 dekabr 2020-ci il tarixdə «Döyüşdə fərqlənməyə görə» medalı ilə təltif olunmuşdur.

Ailəli idi, Fərid adlı bir oğul övladı var.

Əhmədzadə Fərid Famil oğlu 23 dekabr 2001-ci ildə İsmayıllı şəhərində anadan olub. O, Azərbaycan Memarlıq və İnşaat Universitetinin III kurs tələbəsidir.

*Sən ölməz bir cəsur oldun, igid oldun,*
*Düşmənlərə sinə gərdin şəhid oldun.*
*Öz qanınla tarixlərə tarix yazdın, vahid oldun,*
*Qəhrəmanlar ölkəsində olanlara şahid oldun.*

Familin əziz xatirəsi yaddaşlardan silinməyəcək.

✍ Vəsidə Mustafaqızı